Allahın qulları üzərində haqqı Ona ibadət edərək, Ona heç bir şeyi şərik qoşmamaqdır. Qulların Allah üzərində haqları isə, Ona şərik qoşmayan kəsə əzab verməməsidir

Muazdan - Allah ondan razı olsun - olan rəvayətdə o dedi: Bir dəfə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Ufeyr adlanan uzunqulağın belində öndə , mən isə arxada oturmuşdum. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) (mənə) dedi: "Ey Muaz, Allahın qulları üzərindəki və qulların Allah üzərindəki haqlarını bilirsənmi?". Dedim: "Allah və Rəsulu ən doğrusunu bilir". Dedi: "Allahın qulları üzərində haqqı Ona ibadət edərək, Ona heç bir şeyi şərik qoşmamaqdır. Qulların Allah üzərində haqları isə, Ona şərik qoşmayan kəsə əzab verməməsidir.". Mən dedim: "Ey Allahın Rəsulu! Bununla insanları müjdələməyimmi?". O isə: "Müjdələmə, yoxsa arxayınlaşarlar" - dedi.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın qullar üzərində olan haqqını və qulların Allah üzərində olan haqqını bəyan edir və bildirir ki, Allahın qullar üzərində haqqı yalnız Ona ibadət etmək və Ona heç nəyi şərik qoşmamaqdır. Qulların Allah üzərində haqqı, Ona heç nəyi şərik qoşmayan tövhid əhlinə əzab verməməsidir. Sonra Muaz deyir: Ey Allahın Rəsulu, insanlar bu sevindirici xəbərlə sevinsinlər və şad olsunlar deyə onları müjdələməyim? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanların buna arxayın olmasından qorxduğu üçün müjdələməyi ona qadağan edir.

https://sunnah.global/hadeeth/az/show/65007